Azərbaycan Hüquq Jurnalı

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən _____ tarixdə dövlət qeydiyyatına alınmışdır (№_____).
Jurnal ildə dörd dəfə dərc olunur.

№1-2019
ISSN 1810-9055

Baş redaktor:
h.ü.e.d., professor *Ə.İ.Əliyev*

Redaksiya Heyətinin sədri
h.ü.f.d., dosent *T.İ.Hüseynov*

Baş redaktorun müavini:
h.ü.f.d. *P.A.Bayramova*

Redaksiya Heyətinin üzvləri:
AMEA-nın müxbir üzvü, h.ü.e.d., prof. *M.F.Məlikova*
akademik *L.A.Aleksidze* (Gürcüstan)
h.ü.e.d., prof. *N.H.Cəfərli*
h.ü.e.d., prof. *İ.O.Quliyev*
h.ü.e.d., prof. *Ə.H.Rzayev*
h.ü.e.d., prof. *Ş.T.Səmədova*
h.ü.e.d., prof. *K.N.Səlimov*
h.ü.e.d., prof. *Ə.İ.Sadıqov*
h.ü.f.d., prof. *Z.A.Əsgərov*
h.ü.e.d., prof. *V.A.Vasilyeva* (Ukrayna)
h.ü.e.d., prof. *İ.N.Sopilko* (Ukrayna)
h.ü.e.d., prof *A.İ.Abdullin* (Rusiya)
h.ü.e.d., prof. *V.A.Avdeyev* (Rusiya)
h.ü.e.d., prof. *G.İ.Xubua* (Almaniya)
h.ü.e.d., prof. *A.M.Əliyev* (Almaniya)
h.ü.f.d., dos. *F.B.Riehl* (Almaniya)
h.ü.e.d., prof. *A.A.Sabitova* (Qazaxstan)

Məsul katib:
h.ü.f.d., dosent *A.N.İbrahimova*

Bu jurnal 2002-2012-ci illər ərzində gənc alim Elçin Qarabalovun redaktorluğu altında dərc edilmiş və Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının elmi nəticələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilmişdir. E.Qarabalovun vaxtsız vəfatından sonra jurnalın fəaliyyəti dayandırılmışdır. Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin təşəbbüsü ilə jurnalın dərci 2018-ci ildən bərpa edilmişdir. Məqsəd Azərbaycan hüquq elminin inkişafına töhvə vermək və onun beynəlxalq müstəvidə tanınmasına nail olmaqdır.

©Bakı Dövlət Universiteti, Hüquq fakültəsi, 2019

MÜNDƏRİCAT

HÜQUQ TƏCRÜBƏSİ

Əmir Əliyev, Turqay Hüseynov

HÜQUQ FAKÜLTƏSİ TƏLƏBƏLƏRİNİN HAZIRLANMASINDA HÜQUQ KLİNİKASININ ROLU (AZƏRBAYCAN RESPUBLİKASININ TƏCRÜBƏSİNDƏ) (*rus dilində*) 4

İNFORMASİYA HÜQUQU

Səyyad Məcidov. ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜ VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ 10

CİNAYƏT HÜQUQU

Leonard Kolodkin

QEYRI-ZORAKILIQ ETİKASI GƏNC EKSTREMİZMƏ VƏ ZORAKI CİNAYƏTKARLIĞA QARŞI BİR VASİTƏ KİMİ (*rus dilində*) 19

Ceyhun Əzizov

HƏRBİ XİDMƏT ƏLEYHİNƏ OLAN CİNAYƏTLƏRƏ DAİR TƏHQİQAT (HƏRBİ TƏHQİQAT) İBTİDAİ ARAŞDIRMANIN BİR FORMASI KİMİ 28

BEYNƏLXALQ HÜQUQ

Əlövsət Allahverdiyev

HƏRBİ CİNAYƏTLƏRİN TƏCAVÜZ CİNAYƏTİ İLƏ EYNİLİYİ VƏ FƏRQLİYİ (*rus dilində*) 36

Pərviz Həsənov

HƏRBİ MÜNAQİŞƏLƏR ZAMANI ƏTRAF MÜHİTİN QORUNMASI SAHƏSİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞI (*rus dilində*) 43

Aydan Məmmədova

AVROPA İTTİFAQINDA ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ MÜDAFİƏSİ HARMONİZASİYA PROSESİNDƏ (*rus dilində*) 60

HÜQUQ TARİXİ

Namiq Əliyev

TÜRKMƏNÇAY MÜQAVİLƏSİNİN CƏNUBİ QAFQAZ ÜÇÜN SİYASİ-HÜQUQİ MAHİYYƏTİ VƏ NƏTİCƏLƏRİ (*rus dilində*) 69

Əmir Əliyev, Turqay Hüseynov. Hüquq fakültəsi tələbələrinin hazirlanmasında hüquq klinikasının rolu (Azərbaycan Respublikasının təcrübəsində) // Azərbaycan Hüquq Jurnalı. 2019 (№1), s. 4-9

HÜQUQ TƏCRÜBƏSİ

РОЛЬ ЮРИДИЧЕСКОЙ КЛИНИКИ В ПОДГОТОВКЕ СТУДЕНТОВ ЮРИДИЧЕСКОГО ФАКУЛЬТЕТА (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ)

Амир Алиев
(*al.amir.ib@mail.ru*)
д.ю.н., профессор
(Бакинский государственный университет)

Тургай Гусейнов
(*turgay@legcon.org*)
д.ф.п.п., доцент
(Бакинский государственный университет)

Резюме

Статья посвящается анализу перспектив внедрения в образовательный процесс на юридическом факультете клинического образования. Определяется место юридической клиники в подготовке высококвалифицированных специалистов по специальности «юриспруденция». Анализируется практика применения клинического юридического образования в Бакинском государственном университете. Подтверждается, что клиническое юридическое образование позволяет усилить мотивацию студента к обучению и избранию будущей сферы деятельности, приобрести реальный практический опыт до получения диплома, углубив и развив теоретические знания.

Ключевые слова: *юридическая клиника, практика, юридическое образование, клиническое образование, Бакинский государственный университет*

Важно заметить, что за последние 10 лет развитию юридических клиник в юридическом образовании на постсоветском пространстве отводится особое место. Хотя не следует забывать, что первая юридическая клиника была создана еще в 40-х годах XIX века в Казанском университете под руководством проф. Д.И.Мейера.[1] А в 1901 г. на страницах немецкого журнала «Deutsche Juristen-Zeitung» проф. Фроммгольд высказался за устроение при юридических вузах клиник, которые оказывали бы юридическую помощь нуждающимся. Клиники могли бы посещать, кроме клиницистов, иные студенты – слушатели, которые лишь присутствовали

[1] См.: Мейер Д.И. О значении практики в системе современного юридического образования. - Казань: типография Университета, 1855. 50 с.

бы при объяснениях профессора и клиницистов, не принимая непосредственного участия в занятиях. Первые юридические клиники в США появились в конце XX века. Все это является показателем важности клинического образования, которая как видим имеет почти двухвековую историю.

Сегодня развитию юридических клиник придается особое значение и на международном уровне. Так, Резолюцией Генеральной Ассамблеей ООН A/RES/67/187 от 20 декабря 2012 года были приняты Принципы и руководящие положения, касающиеся доступа к юридической помощи в системах уголовного правосудия. Так, пункт 61 указанного документа рекомендует государствам – членам ООН оказывать поддержку, поощрять и стимулировать деятельность юридических служб при университетах («university law clinics»).[2]

В азербайджанском юридическом образовании появление юридических клиник началось с начала XXI века. Так, за это время появились ряд нормативных актов, направленных на формирование правовой основы деятельности юридических клиник и их место в структуре высших учебных заведений Азербайджана. Особо следует отметить Распоряжения Президента Азербайджанской Республики от 28.12.2006 года и 27.12.2011 года, которые дали новый импульс развитию юридических клиник и их интеграции в учебный процесс. Важность введения юридической клиники в структуру юридического факультета вызвана надобностью обучения студентов и магистров практическим навыкам, а также оказания малоимущим слоям населением бесплатной правовой помощи, что будет в конечном итоге способствовать поготовке высококвалифицированных специалистов в области юриспруденции. Все это подтверждает тот факт, что юридические клиники способствуют повышению уровня правового сознания и правовой культуры обучающихся и влияют на формирование профессиональных навыков.

[2] United Nations Principles and Guidelines on Access to Legal Aid in Criminal Justice Systems: Resolution A/RES/67/187 adopted by the General Assembly on 20 December 2012// Генеральная Ассамблея Организации объединенных наций [Электронный ресурс]. - 2012. - Режим доступа: http://daccess-dds-ny.un.org/doc/UNDOC/GEN/N12/489/82/PDF/N1248982.pdf?OpenElement.

Сегодня юридическая клиника Бакинского государственного университета это структурное подразделение юридического факультета, где студенты и магистры вырабатывают практические навыки и умения, необходимые для оказания бесплатной юридической помощи малообеспеченным и уязвимым слоям населения. Участники юридической клиники, задействованные в работе юридической клиники должны уметь оказывать правовую помощь в виде составления документов юридического характера, проведения интервьюирования и консультирования клиента по возникшим вопросам. Клиника реализуют программу клинического юридического обучения, которая заключается в наличии не только практической деятельности студентов, но и в прохождении теоретических курсов. В ходе специальной подготовки в юридической клинике, обучающиеся приобретают необходимые профессиональные и коммуникативные навыки для работы с клиентами.

Как правило, разрабатывается учебный план для студентов, в который включаются как специальные учебные дисциплины, направленные на отдельные виды практической работы, так и дисциплины общего характера. Знания, полученные в результате изучения данных дисциплин, необходимы студентам в их будущей практической деятельности по разрешению правовых споров и оказанию юридической помощи. Начальным и основополагающим этапом при осуществлении данной деятельности является интервьюирование, в ходе которого студент узнает фактические обстоятельства дела. На данном этапе важно установить доверительные отношения студента с клиентом, так как это способствует получению наиболее полной информации, а, тем самым, эффективному разрешению проблемы. После проведения интервьюирования студент проводит анализ дела, в ходе которого формирует свою позицию: анализирует фактические обстоятельства дела, переданные документы, подбирает необходимый нормативный материал, судебную практику и готовит письменную консультацию.

При одобрении письменной консультации контролирующим преподавателем, студент проводит консультирование клиента. Оно выражается в предоставлении клиенту необходимой правовой информации по делу; доведении до сведения клиента всех возможных вариантов решения его конкретной проблемы; в помощи клиенту выбрать наиболее подходящее для него решение.

Юридическая клиника способствует не только совершенствованию практических навыков у студентов в области права, но и обеспечивает решение различных социальных проблем путем оказания юридической помощи социально незащищенным категориям населения. Здесь следует согласиться с А.А. Войтик, который считает, что юридическая клиника позволяет укрепить связь теоретического обучения с обучением практическим навыкам юридической профессии; позволяет сформировать у студентов ряд профессиональных навыков и ускоряет процесс адаптации к будущей профессии; дает возможность университету участвовать в решении социальных проблем, связанных с оказанием правовой помощи малообеспеченному населению; обучение студентов профессиональному консультированию граждан дает возможность воздействовать на формирование в их активной гражданской позиции и правосознания; клиника позволяет показать студентам ценность и значимость полученных теоретических знаний и применение их на практике, помогает овладеть навыками составления документов юридического характера.[3]

Учитывая последние изменения в национальном гражданском процессуальном законодательстве преподавательский состав юридического факультета, являющиеся членами Коллегии Адвокатов Азербайджана, оказывают необходимую поддержку нуждающимся в судебном представительстве малоимущим слоям населения. Кроме того, оказании бесплатной юридической помощи оказывает непосредственное воздействие на процесс формирования правового сознания студентов высших учебных заведений.

Сегодня учебный план юридических факультетов должен расширять практическую составляющую в предлагаемых учебных программах. Именно подобный подход будет способствовать подготовке специалистов, готовых приступить к непосредственной работе по специальности «юриспруденция».

Не менее важным является также и диверсификация деятельности юридических клиник, а именно их специализация. Подобная

[3] Войтик А.А. Юридическая клиника юридического факультета Белорусского государственного университета: история развития / А.А. Войтик // Информационный бюллетень учебной лаборатории «Юридическая клиника» [Электронный ресурс]. - № 1. - 2005. - С. 4-8.

диверсификация позволит готовить узкоспециализированных юристов и оказывать влияние на развитие правового просвещения населения, а именно повышению правовой культуры и правового сознания, снижению психологической напряженности в обществе. Немаловажным является формирование юридических клиник, которые будут выступать с общественными исками (actio popularis), в частности в сфере охраны окружающей среды.

Юридическая клиника Бакинского государственного университета ведет активную работу по созданию сети юридических клиник при юридических факультетах вузов Азербайджана. Это позволит выявлять наиболее приемлемый путь развития и внедрения клинического образования, обмен опытом, наиболее широких обхват уязвимых слоев населения.

Подводя итог уместно согласиться с такой позицией, что клиническое юридическое образование позволяет усилить мотивацию студента к обучению и избранию будущей сферы деятельности, приобрести реальный практический опыт до получения диплома, углубив и развив теоретические знания, что в итоге, и при надлежащем документальном подтверждении, позволит иметь преимущества при выборе рабочего места.[4]

HÜQUQ FAKÜLTƏSİ TƏLƏBƏLƏTİNİN HAZIRLANMASINDA HÜQUQ KLİNİKASININ ROLU (AZƏRBAYCAN RESPUBLİKASININ TƏCRÜBƏSİNDƏ)

Əmir Əliyev - h.ü.e.d., professor (Bakı Dövlət Universiteti)
Turqay Hüseynov - h.ü.f.d., dosent (Bakı Dövlət Universiteti)

Xülasə

Məqalə kliniki təhsilin hüquq fakültəsindəki təhsil prosesində istifadə edilməsi imkanlarının təhlili ilə bağlıdır. Hüquq fakültəsinin "hüquqşünaslıq" ixtisası üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında hüquq klinikasının yeri müəyyənləşdirilir. Bakı Dövlət Universitetində kliniki hüquqi təhsilin tətbiqi təcrübəsi təhlil edilir. Vurğulanır ki, kliniki hüquqi təhsil tələbənin motivasiyasını inkişaf etdirir və gələcək fəaliyyət sahəsini seçməkdə istiqamət verir, diplom əldə etməzdən əvvəl praktik təcrübə qazanmaq, nəzəri bilikləri dərinləşdirmək və inkişaf etdirmək üçün bizə imkan verir.

[4] Домина А.В. Новые тенденции складывающиеся в сфере высшего юридического образования их влияние на формирование профессионального правосознания. // Реформы и право. 2011. N 1 // СПС КонсультантПлюс.

Açar sözlər: *hüquq klinikası, təcrübə, hüquqi təhsil, kliniki təhsil, Bakı Dövlət Universiteti.*

THE ROLE OF THE LEGAL CLINIC IN PREPARING STUDENTS OF THE LEGAL FACULTY (ON THE EXAMPLE OF THE AZERBAIJAN REPUBLIC)

Amir Aliyev - Doctor of Laws, professor (Baku State University)
Turghay Huseynov - Ph.D (Baku State University)

Abctract

The article is devoted to the analysis of the prospects for implementation in the educational process at the Faculty of Clinical Education. The place of the legal clinic in the preparation of highly qualified specialists in the specialty "jurisprudence" is determined. The practice of application of clinical legal education in the Baku State University is analyzed. It is confirmed that clinical legal education allows us to strengthen the student's motivation to study and select a future field of activity, to gain real practical experience before obtaining a diploma, deepening and developing theoretical knowledge.

Keywords: *legal clinic, practice, legal education, clinical education, Baku State University.*

İNFORMASİYA HÜQUQU

ERMƏNİSTANIN AZƏRBAYCANA HƏRBİ TƏCAVÜZÜ VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ

Səyyad Məcidov
(*sayyad.macid@mail.ru*)
h.ü.f.d., Ədliyyə Akademiyası

Xülasə

Məqalə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü kontekstində informasiya təhlükəsizliyinin təmin edilməsi probleminə həsr olunub. Məqalədə yeni etik və hüquqi normaların, habelə təhlükəsizlik standartlarının uyğunlaşdırılmasını tələb edən müasir informasiya cəmiyyəti müzakirə olunur. Buna görə hərbi təcavüz kontekstində Ermənistan yeni beynəlxalq hüquq meyarlarına - "informasiya müharibəsinə" və ya "informasiya təcavüzünə" diqqət yetirməlidir. Müəllif inanır ki, təcavüzkarlıq və terrorizmlə mübarizədə müasir beynəlxalq və daxili qanunvericiliyə əsasən, medianın davranışı həm hüquqi normalara cavab verməlidir.

Açar sözlər: *təcavüz, beynəlxalq hüquqi məsuliyyət, Ermənistanın Azərbaycana hərbi təcavüzü, informasiya təhlükəsizliyi*

Müasir informasiya cəmiyyəti insanlarda yeni hüquqi və etik normalara, eləcə də təhlükəsizlik standartlarına adaptasiya tələb edir. Bu mənada Azərbaycan cəmiyyətinin, xüsusən sosial şəbəkələrdə və internet mediasında informasiya yüklü hər kəsin məsuliyyət məsələsi hazırda daha çox aktuallıq kəsb etməyə başlayıb. Milli təhlükəsizilik və ərazi bütövlüyü məsələsi bu gün Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması kontekstində daha zəruri amil kimi şərtləşir. Çünki bütün bunlar hazırki dövlət və hüquq siyasətimizin, xüsusilə müasir informasiya-kommunikasiya tələblərini nəzərə alan milli KİV siyasəti, o cümlədən informasiya təhlükəsizliyi və ifadə azadlığı ilə kifayət qədər bağlı bir məsələdir. Ermənistan-Azərbaycan cəbhə xəttində hazırda rəsmi şəkildə atəşkəs elan olunsa da, müharibə şəraiti, o cümlədən informasiya müharibəsi davam etməkdədir. Buna görə də milli təhlükəsizlik və ərazi bütövlüyü ilə bağlı informasiyalara xüsusi həssaslıqla yanaşılmalıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 22 iyul 2010-cu il tarixli çıxışını qeyd olunan məsələ ilə bağlı medianın məsuliyyət yükü, informasiya təhlükəsziliyinin təmin olunması, habelə problemin köklü həll prosesi üçün tarixi və konseptual əhəmiyyətli hadisə hesab etmək olar. Ali Baş Komandan öz nitqində vurğulayırdı ki, "jurnalistikada vətənpərvərlik mövzuları ilə bağlı daha da ciddi işlər

aparılmalıdır, xüsusilə, müharibə şəraitində olan ölkələrdə bu, daha böyük məna daşıyır. Azərbaycan müharibə şəraitində yaşayır, ona görə gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunması işində medianın müstəsna xidmətləri vardır".[1]

Eyni zamanda, dövlət başçısı problemin cinayət xarakterinə toxunaraq qeyd edir: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməyənə qədər biz daim Ermənistana qarşı bütün istiqamətlərdə, bütün yollarla, bütün formalarda hücum siyasətini aparmalıyıq. Xüsusilə nəzərə alsaq ki, həqiqət bizim tərəfimizdədir - faktlar, materiallar, Xocalı soyqırımı, Azərbaycan torpaqlarının işğalı, azərbaycanlılara qarşı etnik təmizləmə siyasətinin aparılması. Bu siyasəti törədənlər hərbi cinayətkarlardır və vaxt gələcək onlar bu cinayətlərə görə beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər. Ona görə mən hesab edirəm ki, biz bu istiqamətdə daha da ciddi işlər aparmalıyıq. Separatistlərə bəraət qazandırmaq, onlardan müsahibə götürmək, onları təbliğ etmək, azərbaycanlıları dəhşətli günahlarda suçlandırmaq - bu bağışlanmazdır. Azərbaycan mediasında belə hallara qarşı çox ciddi və operativ reaksiya verilməlidir. Bu məsələ ilə bağlı jurnalist həmrəyliyi yox, vətəndaş həmrəyliyi olmalıdır". Əlbəttə, istənilən müharibədə qələbə düzgün həyata keçirilən informasiya siyasətindən və subyektlərin davranışından kifayət qədər asılı bir məsələdir. Ona görə də, Azərbaycanda KİV nümayəndəsinin müharibə şəraitində davranışına ciddi yanaşılmalıdır.

Bununla əlaqədar akademik R.Mehdiyev vurğulayır ki, "Formasından və məzmunundan asılı olmayaraq Azərbaycanın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və konstitusiya quruluşu əleyhinə istənilən qəsdə və ya qəsd cəhdlərinə, o cümlədən cəmiyyətin informasiya təhlükəsizliyini və milli maraqlarını təhdid edən hallara qarşı hüquqi çərçivədə zəruri addımlar atılmalıdır".[2]

Müharibə və hərbi əməliyyatlar zamanı informasiyanın əldə olunması və yayılması habelə bununla bağlı hüquqi məsuliyyət adi dönəmlərdə olduğundan fərqli mahiyyət daşıyır və belə situasiyalarda beynəlxalq və milli hüquq normalarına əməl olunmasının zəruriliyi qaçılmaz-

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mətbuat Şurasının yeni binasının açılışında nitqi, 22 iyul 2010. http://www.president.az

[2] Azərbaycan Prezidenti Administrasiyası rəhbərinin yanında keçirilən müşavirədə ölkənin informasiya təhlükəsizliyi ilə bağlı aktual məsələlər müzakirə edilib. http://azertag.az

dır. Müharibə vəziyyəti qlobal informasiya şəbəkəsində hər bir vətəndaşdan xüsusi bacarıq, səriştə və bilgilər tələb edir.

Qeyd olunanlara əsasən, erməni təcavüzü, terrorizmi və separatizminə münasibətdə bəzi mühüm faktorların beynəlxalq hüquq normaları və media azadlıqları kontekstində nəzərdən keçirilməsi daha vacibdir.

Birincisi, Ermənistanın təcavüzkar siyasətinin mahiyyəti barədə məlumatların dünya ictimaiyyətinə düzgün ünvanlanması media, xüsusən internetlə yayılan beynəlxalq təbliğatın rasional effekti ilə sıx bağlıdır.

İkincisi, bu problem siyasi elementlərdən daha çox beynəlxalq cinayət elementləri ilə zəngindir. Yəni, qeyd olunan cinayət əməli sırf ərazi bütövlüyünə, siyasi müstəqilliyə və suverenliyə qəsdlə xarakterizə olunduğundan bu məqam mediada xüsusi olaraq qabardılmalıdır.

Üçüncüsü, problemin meydana gəldiyi dövrdən bu günə qədər onun mahiyyətini etnik, dini, milli və s. amillər deyil, məhz əsassız ərazi iddiaları, sərhədlərin pozulması, xalqların özünümüəyyənetməsi kimi beynəlxalq hüquqi faktorlar təşkil etmişdir ki, jurnalistlərin isə bunlara dəqiqliklə yanaşması olduqca zəruridir.

BMT Baş Assambleyasının Təcavüzün tərifi haqqında 1974-cü il tarixli qətnaməsinə görə təcavüz - bir dövlətin digər dövlətin suverenliyi, ərazi bütövlüyü və ya siyasi müstəqilliyi əleyhinə yönələn və BMT Nizamnaməsi ilə bir araya sığmayan silahlı güc tətbiqidir. Göründüyü kimi, ərazi bütövlüyü təcavüz cinayətinin başlıca elementi kimi nəzərdə tutulur. Eyni zamanda, ərazi bütövlüyü Avropa Konvensiyasının 10-cu maddəsi ilə söz və informasiya azadlığını məhdudlaşdıran elementlərdəndir. Deməli, təcavüzlə bağlı jurnalist məlumat verərkən beynəlxalq hüququn, habelə ölkənin milli informasiya normaları və siyasətinin tələblərini ciddi şəkildə gözləməlidir. Bu barədə KİV-ə ötürülən məlumatlar heç bir halda separatizmə və digər cinayətkar meyllərə şərait yaratmamalıdır.

Hazırki beynəlxalq hüquq normaları ərazi bütövlüyünə qəsd edən əməlləri – təcavüzü, separatizmi, terrorizmi, etnik qarşıdurmaları və s. qadağan edir. Avropa Məhkəməsinin bir sıra işlərində ərazi bütövlüyü dövlətin mühüm mövcudluq şərti kimi xarakterizə olunur və bu sferaya aid informasiyalar qanunla mühafizə edilir. Məhkəmənin ***Sürek və Özdəmir Türkiyəyə qarşı (1999)*** işində separatizm təbliğatını yaydıqlarına görə jurnalist olan ərizəçilərin hər biri milli məhkəmələr tərəfindən altı ay azadlıqdan məhrum etmə və cərimə cəzasına məhkum edilmiş, dərc edlimiş nəşrlərin nüsxələri isə müsadirə olunmuşdu. Onlar tərəfindən yüksək rütbəli PKK üzvü ilə iki müsahibə dərc olunmuş, orada

Türkiyənin hakimiyyət orqanlarının cənub-şərqdəki siyasəti kürdləri öz ərazilərindən didərgin salmağa və onların müqavimətini qırmağa yönələn siyasət kimi təsvir olunaraq pislənilmişdir. Yazıda həmçinin, milli hüquqa əsasən qanunsuz sayılan dörd təşkilatın birgə bəyanatı da dərc edilmişdir. Bu işdə Avropa Məhkəməsi milli təhlükəsizliyin və ərazi bütövlüyünün müdafiəsini ifadə azadlığının məhdudlaşdırılmasına mütənasib hesab etmişdir. Məhkəmənin qənaətincə, məqalə Türkiyənin cənub-şərqində insanları zorakılığa təhrik edə bilərdi.[3]

Hüquqi cəhətdən KİV ücün zəruri olan element Dağlıq Qarabağda və onun ətraf rayonlarında baş verən faktların və hadisələrin necə adlandırılması məsələsidir. Bu, birbaşa beynəlxalq hüququn tələbidir və məsələnin düzgün hüquqi qoyuluşu pozitiv həll prosesinin daha da sürətlənməsinə yardımçı ola bilər. Əksəriyyət KİV-də və ədəbiyyatlarda beynəlxalq cinayət faktlarının adi terminlərlə təqdim olunması baş verən hərəkət və hərəkətsizlikləri hüquqi parametrlərinə görə kifayət qədər əhatə etmədən əsas mahiyyətdən yayınmağa səbəb olur və hadisələrin kriminal elementlərinin aşkarlanmasına maneəçilik törədir. Cinayəti mediada davamlı olaraq məhz cinayət kimi xarakterizə etmək zəruridir. Bu amilləri nəzərə alaraq fikrimizcə, problemin beynəlxalq və ölkədaxili KİV-də "Ermənistanın Azərbaycana hərbi təcavüzü" şəklində təqdim olunması və bu əməli törədənlərin öz adı ilə - dövlət başçımızın qeyd etdiyi kimi - "hərbi cinayətkarlar" adlandırılması daha məqsədəuyğundur.[4] Çünki, bu zaman beynəlxalq ictimaiyyət qarşısında ermənilərin təcavüz, terror, müharibə, soyqırımı və insanlıq əleyhinə cinayətləri də əhatə edən kompleks cinayət əməllərinə görə beynəlxalq hüquqi məsuliyyətin əsas daşıyıcısı kimi cıxış etməsi diqqət mərkəzində olacaq. 1992-ci il ərzində BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələrdə, qəbul olunan bəzi qərarlarda və verilən bəyanatlarda Ermənistanın hərəkətlərinin "təcavüz" (agression) deyil, təkcə "müdaxilə" (intervention), "işğal" (occupation), "soxulma" (invasion), "ilhaq" (annexion) və s. kimi terminlərlə ifadə olunması bu dövlətin təcavüzkar fəaliyyətinin obyektiv qiymətləndirilməsinə bəzi hallarda hüquqi sədd çəkmişdir. Qeyd edək ki, dövlət kimi Ermənistanın, fərd olaraq isə onun siyasi və hərbi rəhbərlərinin törətdiyi bu əməllərə görə müasir beynəlxalq hüquq *ad hoc* beynəlxalq hərbi tribunalın formalaşdırılmasını tələb edir.

[3] Case of Sürek v. Turkey (No. 1). (Application no. 26682/95), 8 July 1999, http://hudoc.echr.coe.int

[4] Məcidli S.T. "Beynəlxalq hüquq və Azərbaycan Respublikasının media qanunvericiliyi". Dərs vəsaiti. Bakı: "Diplomat" nəşriyyatı, 2009. S.34

10 fevral 2006-ci il Rambuye danışıqlarından sonra Ermənistanın təcavüzü ilə bağlı media üçün əhəmiyyətinə görə yeni beynəlxalq hüquqi tendensiya meydana gəlmişdir: "informasiya təcavüzü" və ya "informasiya müharibəsi". Ermənistan etiraf etmişdir ki, həll prosesində Rambuye danışıqlarının uğursuzluğa düçar olmasının səbəbi onların informasiya müharibəsində Azərbaycana uduzmasıdır. Qeyd edək ki, "informasiya təcavüzü" beynəlxalq hüquqda yeni termindir və virtual jurnalistika, eyni zamanda çap mediası üçün onun mahiyyəti və məna yükü taktiki baxımdan düzgün mənimsənilməlidir.

"İnformasiya təcavüzü" elektron və digər kütləvi informasiya vasitələrinin, veb-resursların köməyi ilə faktiki müharibə vəziyyətində olan tərəflərin biri-birinə qarşı istifadə etdiyi faktlara, arqumentlərə, interpretasiyalara və informasiyalara əsaslanan virtual hücum metodlarının məcmusudur. Bu, əksər hallarda silahlı təcavüzə məruz qalan tərəf üçün özünümüdafiə vasitəsi kimi xüsusi əhəmiyyətə malik ola bilər. Nəticə etibarilə uğurlu alınan Çin təcrübəsi buna yaxşı nümunə hesab olunur. Burada "informasiya təcavüzü"nün iki aspektinə toxunulur: birincisi "iqtisadi informasiya təcavüzü", ikinci isə "mədəni informasiya təcavüzü". ABŞ və Çin arasında gələcək geopolitik qarşıdurmadan yayınmaq üçün Çin rəhbərliyi tərəfindən müasir şərtlərlə informasiya əməliyyatlarına hazırlıq tələbi ilə əlaqədar ölkə virtual səfərbərliyə alınır. 2001-ci ilin yazında Tayvan boğazında Amerika kəşfiyyat təyyarələri ilə baş verən insidentdən sonra amerikalılar Çinin informasiya siyasəti qarşısında tab gətirə bilməmiş, faktiki olaraq, rəsmi Pekin strateji baxımdan ABŞ-a qalib gəlmişdir. Xaynan adasında kəşfiyyat təyyarələri ilə əlaqədar insidentlə nəticələnən böhran zamanı Çin xakerləri ABŞ müdafiə nazirliyinin informasiya sistemlərinə hücum etmiş və nəticə kifayət qədər uğurlu alınmışdır. Əslində bunun nəticəsidir ki, Çin internet istifadəçilərinin sayına görə dünyada ilk yerlərdən birinə sahib olmuşdur. Nəzərə alsaq ki, Azərbaycanda internet istifadəçilərinin sayı 40 faizdən yuxarıdır və yüzlərlə media orqanı ilə yanaşı vətəndaşlarımız internet vasitəsilə dünyada gedən bütün prosesləri sərbəst şəkildə izləyirlər, o zaman bu məsələdə virtual səfərbərlik və informasiya hücumları həqiqətən də problemin müsbət həllinə yardımçı ola bilər.

Ermənistanın Azərbaycana hərbi təcavüzü şəraitində informasiya təhlükəsizliyi və media hüquqları baxımından diqqət yetirilməsi zəruri olan mühüm faktlardan biri də erməni terrorizminə qarşı mübarizə məsələsidir. Müasir beynəlxalq və daxili hüquqa görə transmilli cinayət hesab olunan terrorçuluğa qarşı mübarizədə medianın davranışları hər

iki hüququn normalarına müvafiq olmalıdır. Terrorizmin media ilə qarşılıqlı əlaqəsi baxımından jurnalist üçün vacib olan məqam: terror və terrorizm anlayışları bir-birindən çox sadə bir fərqlə ayrılır - terror uzun sürən qorxu və dəhşət durumunu ifadə edən anlayışdır, terrorizm isə həmin dəhşətli durumun formalaşdırılmasını məqsəd olaraq qarşıya qoyan konkret strategiyadır. Bir qayda olaraq bu cinayətin anlayışı və mahiyyətinə münasibətdə beynəlxalq və milli normalar eyni mövqedən çıxış edir. Terrorizmə qarşı mübarizə sahəsində milli qanunvericiliyimiz beynəlxalq normalara uyğunlaşdırılmış, ölkəmiz BMT-nin 11, Avropanın isə 10 konvensiyasına qoşulmuşdur.

Terrorizm müasir ictimai həyatın daimi faktoruna çevrilmişdir. Elə bu səbəbədən də ictimai sfera media və terrorizmin maraqlarının toqquşduğu məkan kimi çıxış edir. Çünki, insanları qorxutmaq, dəhşətli duruma salmaq məqsədi daşıyan hadisələri cəmiyyətə çatdıran mediadır. Əslində bu cinayətin məqsədi KİV-də o zaman reallaşır ki, həmin vaxt medianın qanunsuz reklam maraqları ilə terrorçunun təxribat maraqları üst-üstə düşür. Məhz terrorizmin hədəfi mediadan istifadə etməklə bir insanı öldürüb milyonları qorxu altına salmaqdır. Qeyd olunan əməl həmişə düzünə qəsdlə törədilir və burada niyyət insanları qorxudaraq ictimaiyyətin diqqətini cəlb etmək, dövləti sarsıtmaq, özlərinin siyasi və digər baxışlarını təbliğ etməkdən ibarətdir. Əsas məqsədi cəmiyyəti məlumatlandırmaq olan media da bəzən bilərəkdən, bəzən isə bilmədən özünün reytinqi naminə terrorizmin bu niyyətinin həyata keçirilməsini təmin etmiş olur. Medianın terrorçular vasitəsilə ələ alınması elə terrorun məqsədinin yarısının reallaşmasına bərabərdir. Ona görə də, medianı terrorizmin təsirindən qorumaq elə cəmiyyəti terrordan qorumaq deməkdir.

Media hüquqları, informasiyanın sərbəst surətdə əldə olunması, bütövlükdə insan hüquqları ilə terrorizmin qarşılıqlı əlaqəsi bir qədər mürəkkəb məsələdir. 2001-ci il 11 sentyabrda ABŞ-da baş verən terror aksiyasından sonra bu məsələyə münasibət tamamilə dəyişmişdir. Dünya ölkələrinin əksəriyyəti öz qanunvericiliklərində insan hüquq və azadlıqlarını bu və ya digər dərəcədə məhdudlaşdıran dəyişikliklər etmişlər. ABŞ və Fransada elə bir qanun qəbul edilmişdir ki, o, məhkəmənin sanksiyası olmadan belə, polisə bütün nəqliyyat vasitələrində yoxlama və axtarışlar aparılmasına icazə verir. Almaniyada isə məxfi xidmət orqanlarına və polisə tapşırılmışdır ki, rabitə və telefon qovşaqlarındakı danışıqlara qulaq asılmasına qoyulmuş həddi zəiflədilsin. İngiltərədə şübhəli görünən terrorçuların hakimin qərarı olmadan istənilən vaxt tutulması barədə göstəriş mövcuddur. XX əsrdə qlobal şəkildə yayılmış beynəlxalq

terrorizmə qarşı mübarizə 1993-cü il Vyana Bəyannaməsində və İnsan hüquqlarının qorunması ilə bağlı Ümumdünya Konfransının qəbul etdiyi Proqramda öz ifadəsini tapmışdır. Bu sənədlərdə beynəlxalq terrorizmin, onun forma və praktiki aşkarolunma metodlarının, demokratiya və insan azadlığı, həyatı üçün təhlükə törətdikləri göstərilir.

Terrorçuluğa qarşı mübarizə haqqında 18 iyun 1999-cu il tarixli Qanunun 11-ci maddəsi terror aksiyaları barəsində ictimaiyyətə məlumat verilməsi məsələsini tənzimləyir. Qanuna görə, terror əleyhinə aparılan əməliyyatlar zamanı terror aksiyaları barəsində ictimaiyyətə məlumatlar əməliyyat qərargahının rəhbərinin və ya ictimaiyyətlə əlaqələr üzrə məsul nümayəndəsinin müəyyən etdiyi formada və həcmdə verilir. Aşağıdakı məlumatların yayılmasına isə yol verilmir: 1) terror əleyhinə əməliyyatların aparılması taktikası və texniki üsulları haqqında; 2) terror əleyhinə aparılan əməliyyatlar zonasında və ya bu zonanın hüdudlarından kənarda olan insanların həyatına və sağlamlığına təhlükə yaradan və terror əleyhinə əməliyyatların aparılmasına əngəllik törədən məlumatlar haqqında; 3) terrorçuluğa bəraət qazandıran və ya onların təbliğinə xidmət edən məlumatlar haqqında; 4) terror əleyhinə aparılan əməliyyatlarda iştirak edən, habelə bu əməliyyatların aparılmasına kömək edən şəxslər haqqında.[5]

Əlbəttə, terror xəbərlərinin media vasitəsilə olduğu kimi cəmiyyətə təqdim edilməsinin həm faydalı, həm də zərərli tərəfləri mövcuddur. Bu zaman bir tərəfdən, cəmiyyətin senzurasız xəbər almaq hüququ təmin olunur, terror hadisəsindən sonra dövlət əleyhinə yayıla biləcək şayiələr və bu tipli digər təxribatçı əməllərin qarşısı alınır, həmin dəhşətli hadisələri izləyən insanlarda dövlətin güc strukturlarına etimad və inam daha da möhkəmlənmiş olur, digər tərəfdən isə, terror xəbərlərinin tez-tez ekranlara daşınması terrorçuları qəhrəman obrazına gətirə, hadisənin yaratdığı səs-küy digər qrupları həvəsləndirə bilər, medianın terror faktını detallı araşdırması terrorçulara səhvlərini aradan qaldırmaq, istifadə etdikləri taktikanı gözdən keçirmək üçün vəsait ola bilər. Eyni zamanda, davam edən terrorun mediada canlı yayımlanması yolverilməzdir.

Beləliklə, XXI əsrin informasiya və kompyuter texnologiyalarının müasir inkişaf tempi nəzərə alınmaqla Ermənistanın Azərbaycana hərbi təcavüzü şəraitində KİV ilk növbədə, "informasiya təcavüzü"nə qarşı "xüsusi təyinatlılar" qismində fəaliyyət göstərməlidirlər. Eyni zamanda,

[5] Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az

"iqtisadi informasiya təcavüzü" müasir reallıqlarla tam üst-üstə düşdüyündən, bu müstəvidə ölkəmiz artıq bir çox nailiyyətlərə izma atmışdır. Ölkə Prezidenti dəfələrlə bəyan etmişdir ki, dövlət büdcəmizdə müdafiə xərcləri Ermənistanın bütövlükdə dövlət büdcəsinə bərabər və ondan çox olmalıdır. Bu amil nizamlanma prosesində mühüm element kimi əhəmiyyətli rol oynayacaq. Dövlətimizin hərbi imkanları artdıqca və iqtisadiyyatı gücləndikcə, Ermənistan Azərbaycanın arqumentləri ilə də hesablaşmalı olacaq. Bütün bunlar isə qlobal informasiya şəbəkəsində yalnız vətənpərvər media peşəkarları vasitəsilə həyata keçirilməlir. Çünki, bu şəbəkə informasiya müharibəsinin iştirakçıları, o cümlədən, jurnalistlər üçün xüsusi bilik, baçarıq və məlumat bazası tələb edən virtual poliqon hesab olunur. İkincisi, müharibə dövründə jurnalist məsuliyyəti fərqli mahiyyət daşıdığından, dövlətin informasiya siyasəti ilə uyğunsuzluq təşkil edən KİV-ə təsadüfi, xüsusilə, hərbi və kəşfiyyat xarakterli informasiyaların ötürülməsi, döyüş əməliyyatları barədə əhalidə çaşqınlıq yaratmaq məqsədi daşıyan qərəzli məlumatların və s. yayılması yolverilməz hesab olunur və belə hərəkətlər cinayət məsuliyyətinə səbəb olacaq. Üçüncüsü, media terrorizmə, o cümlədən erməni terrorçuluğuna qarşı mübarizədə daha aktiv mövqe nümayiş etdirməklə, dərk etməlidir ki, o, terror xəbəri yayarkən ilk növbədə terrorizmə yox, dövlətimizin mənafeyinə, insanların hüquq və maraqlarına yardımçı olmalıdır. Bu zaman jurnalist zəruri olan bir məqama – bir çox hallarda insanın informasiya əldə etmə azadlığı bütövlükdə dövlətin və cəmiyyətin maraqlarından və yaşam haqqından yüksək sosial dəyərə malik ola bilməz - müddəasına xüsusi diqqət yetirməlidir.

ВОЕННАЯ АГРЕССИЯ АРМЕНИИ ПРОТИВ АЗЕРБАЙДЖАНА И ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ

Саййад Маджидов - д.ф.п.п., Академия Юстиции

Резюме

Статья посвящена проблема обеспечения информационной безопасности в контексте военной агрессии Армении против Азербайджана.

В статье обсуждается современное информационное общество, которое требует адаптацию новых этических и юридических норм, а также стандарт безопасности. Поэтому в контексте военной агрессии Армении необходимо уделять внимание новой международно-правовой тенденции – «информационной войне» или «информационной агрессии». Автор считает, что согласно современному международному и внутригосударственному праву в борьбе против агрессии и терроризма поведению СМИ должна отвечать обоим юридическим нормам.

Ключевые слова*: агрессия, международная правовая ответственность, военная агрессия Армении против Азербайджана, информационная безопасность.*

MILITARY AGGRESSION OF ARMENIA AGAINST AZERBAIJAN AND INFORMATION SECURITY

Sayyad Majidov - Ph.D, Academy of Justice

Abstract

The article is dedicated to research the international law problem information security in context military aggression of Armenia against Azerbaijan.

In article investigated adaptation of modern information society to the new juridical and ethical norm and security standards. Therefore it is necessary to pay attention to the new tendencies – information war and information aggression in the context of military aggression of Armenia.

Author considers that, according to international and domestic law in fighting against aggression and terrorism behaviors of the media must correspond to both legal norms.

Keywords*: aggression, international law responsibility, Armenian military aggression against Azerbaijan, information security.*

CİNAYƏT HÜQUQU

ЭТИКА НЕНАСИЛИЯ КАК СРЕДСТВО ПРОТИВОДЕЙСТВИЯ МОЛОДЁЖНОМУ ЭКСТРЕМИЗМУ И НАСИЛЬСТВЕННОЙ ПРЕСТУПНОСТИ

Леонард Колодкин
доктор юридических наук, профессор
(Научно-исследовательский центр
Академии управления МВД России)

Резюме

Данная статья посвящена описанию основных аспектов, этики и философии ненасилия как средства противодействия молодежному экстремизму и насильственной преступности. Как пишет автор, подростковую агрессивность и склонность к насилию нельзя сводить только к недостаткам учебно-воспитательной работы, слабостью охраны образовательных учреждений. Автор статьи останавливается на одном аспекте проблемы - дефиците знаний об этике ненасилия в нравственном формировании подрастающего поколения.

Ключевые слова*: этика ненасилия, молодежный экстремизм, молодежное насилие, подростковая агрессивность, насильственная преступность.*

Не призрак, как это было в XIX веке, а чудовищный монстр криминального насилия «бродит» по странам и континентам. Подавляющее большинство преступлений совершают лица в юношеском возрасте. Не является исключением из этого характеристика насильственной (агрессивной) преступности в Российской Федерации. Преступность такой мотивации имеет место в самых разных сферах общественных отношений. В специальной литературе предлагается классифицировать криминальное насилие на бытовое, в том числе связанное с семейными отношениями и совместными трудовыми занятиями; насилие в общественных местах (улицах, парках, дворах, подъездах, местах проведения массовых мероприятий); насилие в закрытых социальных обществах (армия и другие силовые структуры, места лишения свободы, закрытые медицинские учреждения); злоупотребление легитимным насилием со стороны должностных лиц государства, связанные с дискриминацией; насилие связанное с нарушением международного права о вооружённых конфликтах и обращения с мирным населением, военнопленными; насилие в форме геноцида; насилие в ходе меж-

национальных, религиозных и иных массовых конфликтов; насилие связанное с борьбой за власть.[1] По подсчётам профессора Лунеева в действующем уголовном законодательстве (УК РФ) насчитывается более 60 составов преступлений, совершаемых с применением насилия, размещённых в шести разделах и 11 главах кодекса (16, 17, 18, 20, 21, 24, 25, 32, 33 и 34).[2] Это характеристика по объективной стороне. А по субъекту выделяется довольно обширная группа преступности несовершеннолетних, молодёжное население. Под насилием в русском языке понимается принудительное воздействие на кого-либо, применение физической силы, притеснение, запугивание, беззаконие.

Традиционно насилие подразделяется на физическое лишение жизни, причинение вреда физическому, соматическому статусу; психическое насилие - действия, причиняющие психическую травму - угрозы, клевета, оскорбления, шантаж, дискредитация, принуждение, ограничение волеизъявления человека. В УК РФ содержатся такие формы насилия как шантаж и пытка, издевательство и истязание, другие конкретизированные формы противоправного воздействия.

К психическому насилию относятся обман, способный изменить поведение другого лица в интересах субъекта обмана, методы психопрограммирования (воздействие организаторов террористических акций на исполнителей, манипуляции «гадалок», «врачевателей», разного рода мошенников, псевдоэкстрасенсов, лидеров сект и тому подобное. Перечень форм насилия постоянно расширяется.

Молодёжное насилие чаше всего бывает обращено на окружающих (соучастников, преподавателей, родителей, близких, участников совместной трудовой или предпринимательской деятельности или на себя в форме суицида (самоубийства). Характерно, что довольно часто убийцы-подростки кончат жизнь самоубийством. Молодёжное насилие не имеет границ. В США стрельба и массовые жертвы в образовательных учреждениях от рук «юных стрелков» стали обыкновенным явлением. Но аналогичные случаи имеют

[1] Антонов Ю.М. Актуальные проблемы насилия в российском обществе.// Уголовное право, 2000, №3

[2] Лунеев В.В. Курс мировой и российской криминологии. Особенная часть, т. II, М. Юрайт, 2011

место и в других странах. В сентябре 2006 года в колледже «Доусон» в Монреале (Канада) в результате стрельбы из карабина погиб один студент и получили ранения 19 учащихся. Буквально менее чем через полгода в школе города Монтеррей (Мексика) загремели выстрелы. Стрелял ученик младших классов. Жертвами стрельбы стала учительница и трое одноклассников. Стреляют юнцы и в учебных заведениях европейского континента. В марте 2009 года в колледже германского города Виниендена подросток открыл огонь по товарищам по учёбе из отцовского крупнокалиберного пистолета, в результате 15 учеников погибли, а 11 получили ранения. Самой кровавой в истории Великобритании явилась гибель от рук подозреваемого в педофилии 16 учащихся начальной школы в городе Данеболейн и такого же числа раненных. Во всех этих случаях убийцы покончили с собой. Не являются исключением из этого трагического перечня и наши учебные заведения. Случаи вооружённого нападения учащихся учебных заведений на своих сверстников и педагогов имели место в Москве, Перми, Улан-Уде, Шадринске и других городах и населённых пунктах.

Нельзя сводить реагирование на эти факт только ужесточением наказаний и административных режимов приобретения и хранения огнестрельного оружия. Есть довольно мудрое изречение: «не ружья убивают людей, люди убивают людей». Из него вытекает - надо работать с людьми. При этом необходимо выявлять причины и факторы, порождающие массовые убийства сверстников, участие юнцов в несанкционированных протестных акциях, насильственных противоправных действиях, совершении правонарушений экстремистской направленности. На них необходимо реагировать путём минимизации их влияния или сведению к нулевому значению.

Молодёжная среда обладает многими особенностями. Она свободно себя чувствует в виртуальной среде «группы по интересам». А «интересы» могут быть самыми крайними. Достаточно сказать, что в сети «В контакте» сформировался своеобразный «колумбайн-бум». Его героями были объявлены «стрелки» школы «Колумбайн» Ээрик Харри и Дилан Клибилд, перестрелявшие в 1999 году десятки своих одноклассников. В результате довольно простых манипуляций в виртуальном пространстве можно было прочитать на экране ПК похождения юных убийц, фрагменты их дневников, кадры снятых о них кинофильмов и другие материалы. Для многих

пользователей эти хладнокровные убийцы являются кумирами, «борцами с системой» восставшие против издевательства над ними и травли «буллинга». Обсуждая случай в Керчи, пользователи часто употребляют выражения одобрения и даже восхищаются трагедией, призывают повторить подобный «колумбайн». В чём причина такой агрессивности подрастающего поколения? Почему мы встретились с явлениями, с которыми раньше не сталкивались?

Может быть интернет, как думают некоторые, готовит обществу убийц? Да, мы живём по терминологии Ральфа Дорендорфа, в условиях «информационной деревни», когда все о всех знают и всем ни до кого нет дела. Культ денег и потребления поразил глобальную сеть. В ней есть так называемый Darknet, где заключаются сделки по продаже оружия и наркотиков, где инструктируют по изготовлению взрывчатых и отравляющих веществ, где процветает педофилия и порнография, формируются ОПГ и молодёжные банды. Воспитанию хладнокровных убийц способствует увлечённость молодёжи компьютерными играми, так называемыми «стрелялками», где процветает культ насилия. Свою лепту в молодёжное насилие вносит доступность оружия и широкое распространение культа силы, умения постоять за себя, агрессивность и насилие как образ жизни, эталон поведения и средство решения всех проблем. Но компьютеры, как и ружья не убивают людей, стреляют люди, находящиеся в переломном возрасте от детства к юности. Когда в обществе отсутствуют базисные основы (цели, перспективы, общепризнанные принципы и ценности), когда социальные нормы подвергнуты аномии и правовому нигилизму юные убийцы в глазах сверстников выглядят этакими героями, сражающимися с обидчиками. Подростки часто не могут справиться с накапливающейся агрессией, вызванной равнодушием взрослых и обидами от учителей, родителей и одноклассников. Авторитет старших сведён к нулевому значению усилиями средств массовой информации, делящих всех «совков» на «палачей и жертв» и взаимозаменяемости этих социальных групп. Отсюда глобальная увлечённость виртуальными контактами.

Подростковую агрессивность и склонность к насилию нельзя сводить только к недостаткам учебно-воспитательной работы с молодёжью, слабостью охраны образовательных учреждений и отсутствию огнестрельного оружия у преподавателей. Остановимся толь-

